# Qalibsiz müharibə

## 3 ildir davam edən bu savaşın nə vaxt və necə bitəcəyini bilən yoxdur

**Sabah Rusiya-Ukrayna müharibəsinin başlanmasından üç il ötür. 2022-ci il fevralın 24-də Rusiya heç bir rəsmi açıqlama vermədən "xüsusi hərbi əməliyyat" adı ilə qonşu və qardaş saydığı ölkənin ərazisinə hücuma keçdi. Lakin bu müharibə gözlənilən idi və hətta proqnozlaşdırılırdı.**



Əslində, Ukraynada müharibə üç il əvvəl deyil, hələ 2014-cü ildə Krımın tam, Donbassın və Luqanskın isə bir hissəsinin işğalı ilə başlamışdı. Bütün bu əməliyyatlar "əsl Rusiya ərazilərinin birləşdirilməsi, rusdilli əhalinin müdafiəsi və Rusiyanın ayaq üstə qalxmasını" təmin etmək şüarları altında həyata keçirilmişdi.

Ukraynaya hərbi müdaxilə beynəlxalq təhlükəsizliyə də böyük zərbə oldu. Amma təhlükəni ilk hiss edənlər Rusiyanın ən yaxın qonşuları idi. Və həmin qonşular öz yollarını seçdilər. Finlandiya və İsveç NATO-ya üzv qəbul edildilər və bununla özlərini Rusiya təcavüzündən müdafiə etmiş oldular. Qazaxıstan KTMT hərbi blokunun üzvü olaraq manevr etməyi seçdi. Lakin Rusiya hakimiyyəti tərəfindən Ukrayna ərazisində yaradılmış "kvazi-dövlət qurumlarını" tanımaqdan da imtina etdi. Avropa İttifaqı ölkələri isə vahid mövqedən çıxış edərək Rusiyaya qarşı "kollektiv Qərb" blokunu yaratdılar. Düzdür, sonralar Macarıstan və Slovakiya bu blokdan aralanmaq mövqeyi nümayiş etdirməyə başladılar.

### Müharibə və sanksiyalar

2022-ci ildə Ukrayna rus qoşunlarının hücumunu dayandıra və vəziyyəti sabitləşdirə bildi. Avropa, ABŞ və dünyanın digər ölkələri Rusiya ordusunun 2-3 günə Kiyevi ala bilməyəcəyinə və Ukrayna xalqının sona qədər döyüşməyə hazır olduğuna əmin olaraq Ukraynanı dəstəkləməyə qərar verdilər. Hərbi dəstək sürətlə artdı. Eyni zamanda Rusiyaya qarşı bir-birinin ardınca sanksiyalar tətbiq olundu, xüsusən də yüksək texnologiya sektorunda. Nəticədə Kremlin sursat və hərbi texnikanın tədarükü ilə bağlı kömək üçün İran və Şimali Koreyaya müraciət etməkdən savayı əlacı və tərəfdaşı qalmadı. Amma sanksiyalar təkcə silah istehsalına təsir göstərmirdi, həm də nəqliyyat, o cümlədən aviasiya, rabitə, mürəkkəb texnika istehsalı və digər sahələrə təsir göstərirdi.

Üstəlik Avropa Rusiya neft və qazından da faktiki imtina etdi, Rusiyanın yerini isə ABŞ, Yaxın Şərq, Norveç, Azərbaycan və digər təchizatçılar tutdu. Suriyada Əsəd rejiminin süqutu da Kreml üçün sarsıdıcı zərbə oldu, baxmayaraq ki, rəsmi Moskva dəfələrlə müxalifətlə mübarizədə, o cümlədən Rusiya hərbi bazalarını qorumaq üçün ona dəstək verməyə hazır olduğunu bəyan etmişdi.

Xaricdən gələn təzyiq artdıqca və Rusiyanın potensialı azaldıqca Moskva KXDR-dən təkcə hərbi texnika yox, həm də əsgərlər istəməyə məcbur oldu. Çünki milyonlarla Rusiya vətəndaşı müharibədə iştirak etməmək üçün xaricə qaçmışdı. Onların yerini isə müxtəlif ölkələrdən olan muzdlular və Mərkəzi Asiya ölkələrindən olan əməkçi miqrantlar tutmağa başlamışdılar. Məhkumlar, o cümlədən ən ağır cinayət törədənlər də müharibəyə "könüllü" getməyə məcbur edilmişdilər.

### Tramp sülhə nail olacaqmı?

Çoxları müharibənin başa çatması ilə bağlı ümidini seçki kampaniyası zamanı 24 saat ərzində savaşı bitirə biləcəyini bəyan edən ABŞ-nin yeni Prezidenti Donald Trampa bağlamışdı. İndi isə Tramp Administrasiyası problemin həlli üçün 100 gündən danışır. Münxen konfransı keçirilib, Ər-Riyadda ikitərəfli görüşlər olub, Tramp Putin və Zelenski ilə telefon danışığı aparıb. Lakin hərbi əməliyyatlar dayanmır, əksinə intensivləşir. Bununla da Ukrayna və Rusiya qələbəyə qədər mübarizə əzmində olduqlarını nümayiş etdirirlər.

Əslində, Tramp Administrasiyası bu gün faktiki olaraq icrası mümkünsüz bir vəzifə ilə üzüzədir. Belə çıxır ki, əgər Ukrayna 4 vilayət və Krımdan imtina etsə, qoşunlarını Kursk vilayətindən çıxarsa, habelə NATO-ya üzv olmaqdan vaz keçərək Kiyevdə ali hakimiyyəti Kremlə sadiq adama verərsə Rusiya sülhə hazırdır. Ukrayna isə ərazilərinin itirilməsi ilə barışan, müstəqilliyindən imtina edən və hər an Rusiya ordusunun yeni işğalının hədəfinə çevrilə biləcək qədər zəifləmiş marionet dövlət deyil və təbii ki, o üzdən Rusiyanın absurd şərtləri qəbulolunmazdır.

Prezident V.Zelenski Ukraynasız əldə edilən heç bir razılaşmanı tanımadığını deyib və Ər-Riyad danışıqları ilə bağlı əvvəlcədən məlumatlandırılmamasından təəssüfləndiyini bildirib. O həmçinin vurğulayıb ki, Kiyev müharibəni dayandırmaq üçün Moskva ilə birbaşa danışıqlara hazırdır və bu, ABŞ Prezidentinin təhlükəsizlik zəmanəti verəcəyi halda mümkündür. Ukrayna Prezidenti hesab edir ki, belə təminat NATO-ya üzvlük və ya ABŞ-nin iştirakı ilə Qərb sülhməramlılarının Ukraynada yerləşdirilməsi ola bilər.

Rusiya da öz növbəsində tələblərini sərtləşdirib. Ölkə XİN-i bəyan edib ki, Ukraynanın NATO-ya üzv olması Rusiya üçün qəbuledilməzdir və hətta sadəcə olaraq alyansa qoşulmaqdan imtina etmək Moskva üçün artıq kifayət deyil - Şimali Atlantika Alyansı 2008-ci ildə Buxarestdə verdiyi vədlərdən də əl çəkməlidir.

Müxtəlif mənbələrdən verilən məlumatlara əsasən, indiyədək tərəflərin ölü və yaralı itkisi 1,5-2 milyon nəfərdir. Müharibə isə davam edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 23 fevral (№41).- S.5.